# Qəbələdə ilin birinci rübü uğurlu olmuşdur

## Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafına və qarşıda duran vəzifələrə dair hesabat

## M Ə R U Z Ə S İ

(Əvvəli 6-cı səhifədə).

tam orta məktəbin binasında tikinti işləri davam etdirilmişdir.

Şəhərin İmadəddin Nəsimi, Xurşidbanu Natavan, Gənclər, Fazil Rəhimov, Məhəmməd Füzuli, Mirəli Qaşqay, Nəsrddin Tusi və Məmmədhüseyn Şəhriyar küçələrinə asfalt örtük çəkilmişdir. Hazırda digər küçələrdə asfaltlaşdırma işləri davam etdirilir.

**Hörmətli yığıncaq iştirakçıları.**

2019-cu ilin birinci rübü ərzində Qəbələyə gələn xarici ölkələrin dövlət rəsmilərinin və turistlərin sayı əhəmiyyətli dərəcədə artmış, beynəlxalq əlaqələrin qurulması istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Belə ki, yanvar ayında Küveyt dövlətinin fövqəladə və səlahiyyətli səfiri, fevral ayında isə Belarus Respublikasının Qrodno şəhər Administrasiyasının nümayəndə heyəti Qəbələ rayonuna rəsmi səfər etmişlər. Səfər çərçivəsində qonaqlar rayonun tarixi yerləri və sənaye müəssisələri ilə yaxından tanış olmuşlar.

**Hörmətli yığıncaq iştirakçıları.**

İlin ötən dövrünü rayon təhsil şöbəsi də yüksək nəticələrlə başa vurmuşdur.

Ümumtəhsil məktəblərində ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Ən yaxşı tədqimat" müsabiqəsi keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən respublikamızda keçirilən "Ölkəmizi tanıyaq" tur-aksiyası çərçivəsində 15-18 mart tarixlərdə Gəncə, Göygöl, Samux, Şəmkir, Goranboy, Kəlbəcər, Xocalı, Tərtər və Gədəbəy rayonlarının, 23-26 mart tarixlərdə isə Ağdam, Ağcabədi, Ağstafa, Bərdə, Beyləqan, Daşkəsən, Qazax, Göyçay və Tovuz rayonlarının məktəbliləri Qəbələyə gəlmiş, rayonumuzla ətraflı tanış olmuşlar. 23-26 mart tarixlərində isə aksiyaya qoşulan Qəbələ məktəbliləri Gəncə-Şəmkir-Göygöl-Tovuz-Qazax və Ağstafa rayonlarına getmişlər.

2019-cu ilin birinci rübü ərzində rayonumuzda fəaliyyət göstərən 23 uşaq bağçasının da maddi-texniki vəziyyətinin daha da yaxşılaşdırılması istiqamətində xeyli iş görülmüşdür.

**Hörmətli yığıncaq iştirakçıları.**

Qəbələ rayonunda fəaliyyət göstərən mədəni-maarif müəssisələrində ötən ilin birinci rübündə tarixi hadisələr, yubileylər, əlamətdar günlər qeyd olunmuş, bir sıra maraqlı mədəni-kütləvi və bədii proqramlar hazırlanmışdır.

Hazırda rayonumuzda fəaliyyət göstərən 19 turizm istirahət obyektləri arasında 7 otel beşulduzludur. Otel və mehmanxana tipli istirahət mərkəzlərinə 2019-cu ilin birinci rübü ərzində 28.540 nəfər turist gəlmişdir.

Rayon mərkəzi xəstəxanasında ilin 3 ayı ərzində stasionar xəstələrin sayı 592 nəfər, cərrahi əməliyyatların sayı 47 olmuşdur.

Bu müddət ərzində ambulator müraciət edən xəstələrin sayı 32790 nəfər təşkil etmişdir.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan obliqat qruplar qrafik üzrə 3 ay ərzində müayinədən keçib. Onların 215 nəfəri təhsil, 162 nəfəri səhiyyə işçiləri, 307 nəfəri isə digər sahələrdə çalışanlardır.

18 yaşadək olan uşaqların icbari dispanserizasiyaya cəlbi 7486 olmuşdur.

Qəbələ Müalicə Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 6944, EKQ müayinələrinin sayı 1451, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 193 nəfər təşkil etmişdir. Stasionar şöbəyə daxil olan xəstələrin sayı 266 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 248, hemodializ seanslarının sayı 1794, şüa diaqnostika şöbəsində ultrasəs müayinələrinin sayı 4176, kompüter tomoqrafik müayinələrin sayı 413, rentgen müayinələrin sayı 4996, fizioterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 1375 olmuşdur. Kliniki laboratoriyada 3248 xəstədə müayinə aparılmışdır.

Ölkə başçısının tapşırığı əsasında respublikada 18 yaşından yuxarı olan əhalinin 12 fevral tarixdən 12 may tarixədək dispanserizasiyası məqsədilə kütləvi tibbi müayinəsi keçirilib və tərtib edilmiş qrafikə əsasən əhali müayinələrə cəlb edilib. Əhalinin müayinəsində bütün ixtisas həkimləri və laborator-instrumental kabinetlər iştirak etmişdir. Müayinələrin nəticəsinə əsasən 1375 nəfərə ambulator müalicə təyin edilmiş, 161 nəfər stasionar müalicəsinə qəbul olunmuş, 82 nəfər isə Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmişdir.

Rayon gigiyena və epidemiologiya mərkəzi tərəfindən ilin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar profilaktiki tədbirlərin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı sahələr və yoluxucu xəstəliklər üzrə kompleks tədbirlər həyata keçirilmişdir.

Rayon gənclər və idman idarəsi tərəfindən 2019-cu ilin birinci rübü ərzində 18 tədbir həyata keçirilmişdir. Bunlardan 9 tədbir gənclərlə iş sahəsini, 9 tədbir isə kütləvi bədən tərbiyyəsi və idman sahəsini əhatə edir.

Qəbələ Dövlət Peşə Tədris Mərkəzi bu tədris ilindən lisey statusu ilə fəaliyyət göstərməyə başlamışdır. 3 illik təhsil proqramları üzrə qəbul olunan tələbələr məktəbi bitirərkən peşə ixtisası ilə yanaşı, həm də tam orta təhsil haqqında attestat ala biləcəklər. Bu da məzunların ali məktəblərə qəbul olunması üçün şərait yaradır.

Müəssisələrin ixtisaslı kadrlara olan ehtiyaclarını ödəmək üçün tədris mərkəzi yeni tələblərə uyğun kadr hazırlığı aparır.

Bu ilin aprel ayından məktəbin buraxılış qruplarının tələbələrinin 60-a yaxın işəgötürən müəssisələrdə istehsalat təcrübəsi keçməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə həmin müəssisələrlə müqavilələr bağlanmışdır.

Turizm və otelçilik üzrə peşə tədris mərkəzinin buraxılış qruplarında ixtisas fənlərindən imtahanlar keçirilmiş, məzunların istehsalata göndərilməsi istiqamətində müvafiq işlər görülmüşdür.

Rayon uşaq və ailələrə dəstək mərkəzində ilin birinci rübü ərzində müxtəlif tədbirlər hazırlanaraq həyata keçirilmiş, bir sıra təlimlər təşkil olunmuşdur.

Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin xidmətindən rüb ərzində Azərbaycanın müxtəlif bölgələrində fəaliyyət göstərən 35 qeyri hökumət təşkilatı bəhrələnmişdir.

**Hörmətli yığıncaq iştirakçıları.**

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında cənab İlham Əliyevin qeyd etdiyi kimi son illər aqrar sahənin inkişafına dövlət qayğısının artması nəticəsində bu sahədə xeyli irəliləyiş olmuşdur. Xüsusilə ölkə başçısının imzaladığı "Kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyi haqqında" Sərəncam kənd təsərrüfatı məhsulları istehsalçılarında böyük stimul yaratmışdır.

2018-ci ilin payızında rayonumuzda bu ilin məhsulu üçün 15790 hektar buğda, 4400 hektar arpa ümumillikdə 20190 hektar sahədə taxıl əkilmişdir.

2019-cu ilin birinci rübündə 12226 hektar taxıl sahəsinə 1200 ton mineral gübrə verilmişdir. Hazırda bu proses davam etdirilir.

Taxıl sahələrinə mütəxəsislər tərəfindən mütəmadi baxış aparılır. Bu günə qədər 12445 hektar sahədə alaq otlarına qarşı mübarizə tədbirləri görülmüşdür.

Cari ilin birinci rübündə tütün əkini üçün 3000 kv metr sahədə isti şitillik hazırlanmışdır.

Bu il 192 hektar sahədə çuğundur əkilmişdir. Sahələrdə normal cücərmə alınmışdır. Artıq ilk becərmə işlərinə başlanılmışdır.

Fındıqçılığın mühüm əhəmiyyət kəsb etməsini nəzərə alaraq rayonumuzda əlavə 2000 hektar yeni fındıq bağlarının salınması nəzərdə tutulmuşdur. 2016-2017-ci illərdə rayonda 1218 hektar, 2018-ci il ərzində 548 hektar, 2019 cu ilin yazında isə 237 ha olmaqla cəmi 2003 hektar yeni fındıq bağları salınmışdır.

Hazırda rayonda 2 böyük və 2 kiçik aqroservis müəssisəsi fəaliyyət göstərir və onlarda kifayət qədər kənd təsərrüfatı texnikası mövcuddur. Bundan əlavə 416 fiziki şəxsdə müxtəlif kənd təsərrüfatı texnikaları vardır. Bütövlükdə rayonda 63 ədəd taxılyığan kombayn, 29 ədəd tırtıllı, 398 ədəd təkərli traktor, 24 ədəd buldozer, 50 ədəd ekskovator və s. kənd təsərrüfatı texnikası vardır. Kənd təsərrüfatı texnikası parkı daim təzələnir.

2018-ci ildə arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə də saxladıqları hər arı ailəsinə (pətəyə) görə dövlət büdcəsindən subsidiya verilməsinə başlanmışdır. Artıq 9000-ə yaxın arı ailəsi qeydiyyata alınmış və bu sahədə işlər davam etdirilir.

Rayonumuzda 2 müasir heyvandarlıq kompleksi və 4 ədəd kiçik həcmli heyvandarlıq təsərrüfatı fəaliyyət göstərir. Mal-qaranın cins tərkibinin, eləcə də damazlıq keyfiyyətlərinin yaxşılaşdırılması üçün 7 nəfər süni mayalama mütəxəssisi çalışır. 2019-cu ilin birinci rübü ərzində həmin mütəxəssislər tərəfindən 1497 baş inək və düyələrdə süni mayalama aparılmışdır.

Bildiyiniz kimi 2016-cı ilin oktyabr ayından etibarən süni mayalama yolu ilə alınmış hər bir baş buzova subsidiya verilir. 2019-cu ilin ötən rübündə süni mayalanmadan alınmış 831 baş buzova 83100 manat məbləğində subsidiya hesablanmışdır. Bu iş mütəmadi olaraq davam etdirilir. Ona görə də heyvan sahibləri süni mayalamaya üstünlük verirlər. Nəticədə mal-qaranın cins tərkibi tədricən yaxşılaşır.

Heyvanların yoluxucu xəstəliklərə tutulmaması üçün vaxtaşırı lazımi müayinə və profilaktika işləri aparılır. İlin ötən dövrü ərzində heyvanların müayinəsi zamanı bureslyoz, dabaq, qarayara, leptospiroz, çiçək və sair xəstəliklər müşahidə edilməmişdir. Hazırda epizootik durum demək olar ki, sabitdir.

**Hörmətli yığıncaq iştirakçıları.**

2019-cu ilin birinci rübü ərzində rayon icra hakimiyyətinə daxil olan vətəndaş müraciətlərinə operativ şəkildə baxılması təmin edilmişdir.

Bu dövrdə rayon icra hakimiyyətinə ümumilikdə 209 ərizə daxil olmuşdur. O cümlədən rayon icra hakimiyyətində baxılması üçün108 ərizə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasından, 5 ərizə Milli Məclisdən, 4 ərizə Nazirlər Kabinetindən, 11 ərizə digər mərkəzi icra hakimiyyəti orqanlarından, 81 ərizə isə vətəndaşlardan birbaşa daxil olmuşdur.

Vətəndaşlar tərəfindən göndərilən ərizələrin məzmunu əsasən onların mənzillə təmin olunması, müalicəyə göndərilməsi, ünvanlı dövlət sosial yardımının təyin edilməsi, birdəfəlik maddi yardımın verilməsi, işə düzəlmə və s. barədə olmuşdur.

Daxil olan ərizələr ətraflı öyrənilərək hər birinə qanunvericilikdə nəzərdə tutulmuş qaydada cavablar verilmişdir.

Ötən rüb ərzində vətəndaşların qəbulunun həyata keçirilməsi istiqamətində də müvafiq işlər görülmüşdür. Belə ki, 2019-cu il birinci rübü ərzində 217 nəfər vətəndaş rayon icra hakimiyyətinin başçısı tərəfindən qəbul edilmişdir. Qəbula gələn vətəndaşların müraciəti ilə bağlı lazımi tədbirlər görülmüş, onların haqlı tələbləri qanunamüvafiq qaydada həll edilmişdir.

Eləcə də hesabat dövrü ərzində rayon icra hakimiyyəti başçısının 10 səyyar görüş-qəbulu keçirilmişdir. Qəbullarda 640 nəfər iştirak etmişdir. Onlardan 63 nəfər çıxış edərək müxtəlif təkliflər irəli sürmüşlər.

İrəli sürülən təkliflərin və müraciətlərin 51-i həll edilmiş, 9 məsələnin həlli ilə bağlı müvafiq izahat verilmiş, digər 3 məsələnin həlli istiqamətində respublikanın əlaqədar təşkilatları qarşısında məsələ qaldırılmışdır. Bunlar əsasən yaşayış məntəqələrinə qaz xəttinin çəkilməsi, elektrik dirəklərinin dəyişdirilməsi, yolların asfaltlaşdırılması, yeni məktəb binalarının, səhiyyə, mədəni-maarif obyektlərinin, körpülərin tikintisi, artezian quyularının qazılması və dağ çaylarında sahilbərkitmə işlərinin aparılması ilə bağlı olmuşdur.

**Hörmətli yığıncaq iştirakçıları.**

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı yekun nitqində ölkəmizin başçısı hazırda iqtisadiyyatın yeni inkişaf strategiyasının hazırlandığını, ölkədə aparılan islahatların beynəlxalq qurumlar tərəfindən dəstəkləndiyini bildirmişdir. Dövlət başçısı ilin sonuna qədər elektrik enerjisi, qazlaşdırma, içməli su, meliorativ tədbirlər, xarici sərmayələrin cəlbi, məcburi köçkünlər və şəhid ailələrinin yeni mənzillərlə təmin olunması ilə bağlı görüləcək işlərdən danışmış, son 15 ildə ölkədə 2 milyon yeni iş yerinin yaradıldığını, əhalinin sayının 10 milyona çatdığını, bunun da qarşıda yeni vəzifələr qoyduğunu demişdir.

Ölkədə sosial islahatların davamlı olacağını deyən cənab İlham Əliyev iqtisadiyyatımızın daha da gücləndirilməsi məqsədilə sənaye parklarının yaradılmasının genişləndiriləcəyini, kənd təsərrüfatında, həmçinin turizm sahəsində mütərəqqi layihələrin tətbiq ediləcəyini bildirmişdir.

Dövlət başçısı bildirmişdir ki, bu il də sosial infrastruktur layihələrinin icrası diqqət mərkəzində saxlanılacaq, dövlət hər zaman Azərbaycan vətəndaşının yanında olacaqdır.

**Hörmətli yığıncaq iştirakçıları.**

2019-cu ilin birinci rübü ərzində rayonumuzda görülən ümumi işlər və bu işlərin yerinə yetirilməsi istiqamətində rayon icra hakimiyyətinin, digər idarə, müəssisə və təşkilatların fəaliyyəti barədə Sizə qısa məlumat verdim.

Əldə edilən uğurlar bizi qarşımızda duran məsuliyyətli vəzifələrin daha inamla həyata keçirilməsinə ruhlandırır. Əminliklə bildirmək istəyirəm ki, Qəbələ Rayon İcra Hakimiyyəti 2019-cu ili daha böyük nailiyyətlərlə başa çatdırmaq üçün fəaliyyətini genişləndirəcək, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında verdiyi göstəriş və tövsiyələrinin, eyni zamanda qanunvericiliklə üzərinə düşən vəzifələrin yerinə yetirilməsi ilə bağlı lazım gələn bütün tədbirləri həyata keçirəcəkdir.

**Diqqətinizə görə sağ olun.**